XATİRƏ

**"Böyük insanlar ölüb getdikləri andan sanki daha artıq bir əzəmətlə vətəndaşların qəlbində yaşamağa başlayırlar. Sanki onlara qarşı yeni bir maraq oyanır, mübarizə tarixi, fəaliyyət və əməlləri, həyat yolu nəinki yalnız elmi məşğul edir, hətta adi vətəndaşlar belə geriyə dönərək bir daha bu yola nəzər salır, onu daha böyük məhəbbət və diqqətlə öyrənirlər. Evlərdə, idarələrdə, küçələrdə, ictimai yerlərdə və ailələrdə onların həyat və fəaliyyətindən danışırlar. Belə bir xadimin ölümü ilə qüssələnənlərin də sayı çox olur. Sənət və peşəsindən asılı olmayaraq bütün vətəndaşlar onların ölümünə təəssüf edir və kədərlənirlər. Bu isə uzun illərin zəhməti nəticəsində yaranmış, bütün məhəbbətlərdən yüksəkdə duran və fəthi çox çətin olan bir məhəbbətin-həqiqi xalq məhəbbətinin ifadəsidir. Əsl ölməzlik, əbədi həyat da budur: xalq məhəbbəti! Xalqın ürəyində qaldırılan heykəl əbədi və yıxılmazdır. Xoşbəxt o adamdır ki, öz həyat və mübarizələri ilə belə bir məhəbbəti qazanır. Çünki qranit daşları yonub hamarlayan zaman da belə bir məhəbbəti silib aparmaqda acizdir. Xalqın ürəyinə yol tapan hər kəs gələcəyin qapısını açır".**



**Üzeyir Hacıbəyov - 130**

# Dahi bəstəkar, sadə insan, qayğıkeş müəllim...

Bu sözlər böyük yazıçımız Mirzə İbrahimovun Üzeyir Hacıbəyova həsr etdiyi "Onu düşünərkən..." adlı xatirə məqaləsindəndir. Dahi bəstəkarımız haqqında bugünədək çox sözlər deyilib, onun həyat və yaradıcılığına işıq salan çox sayda əsərlər yazılıb. Görkəmli sənətkarın 130 illik yubileyi ilə əlaqədar onun haqqında yazılmış ən maraqlı xatirələri bir daha yada salmaq qərarına gəldik. Ümidvarıq ki, xalqımızın bu böyük oğlu haqqındakı xatirələr oxucularımız üçün maraqlı olacaq.

■■■

***Məmməd Səid Ordubadi:*** *"Üzeyir ilə tanışlığımız birinci dəfə "Molla Nəsrəddin" məcmuəsi ilə* başladı. Onun özü satiraçılıqda qüdrətli bir qələmə malik olduğu üçün satira yazanlarla tanış olmağı da sevirdi. Mən hələ Ordubadda olduğum zaman rəssam Əzim Əzimzadə ilə tanış idim və onunla tez-tez məktublaşırdım. Günlərin birində müştərək yazılmış bir məktub aldım. Məktub Əzimzadə, Üzeyir bəy, bir də o zamanın satiraçılarından birisi tərəfindən yazılmışdı. O məktubda Üzeyir bəy yazırdı: "Səid! Təəccüb edirəm ki, nə üçün Ordubadda qapanıb qalmısan. Sən yığışıb Bakıya gəlsən, öz yazılarına çox geniş səhifələr tapa bilərsən, səninlə yaxından tanış olarıq, sənin irəli getməyin üçün imkan yaradarıq. Əzimzadənin dediyinə görə, qoçulardan qorxduğu üçün Bakıya gəlmək istəmirsən. Bu barədə heç də qorxmağa dəyməz. Mənə inan, qoçuların özü də satiranı gülə-gülə oxuyurlar. Sənin "Molla Nəsrəddin" məcmuəsində "Pilov cəzair müctəməsinin əhval coğrafiyası" ünvanlı satiran çox xoşuma gəldi. Onu daima yorğun olduğum vaxt götürüb oxuyuram. Hətta qarınqulu mollalar belə, acıqlandıqlarına baxmayaraq, bu yazını gülə-gülə, dönə-dönə oxuyurlar. Mən məsləhət görürəm ki, belə şeyləri yazanda oxucunu yalnız güldürməyə diqqət vermə, onları düşündürməyə də çalış! Sənin qaibanə dostun H. Üzeyir".

Üzeyir ilə yaxından tanışlığımız Oktyabr inqilabından sonra başladı. Mən iyirminci ildə Həştərxandan Bakıya gəldim. O zaman Bakı ziyalıları və yazıçıları ilə hələ tanış olmamışdım, yalnız rəssam Əzimzadə və Haqverdiyevlə görüşə bilmişdim. Bir az sonra mərhum Cəfər Cabbarlı ilə "Əxbar" qəzeti idarəsində tanış oldum. Üzeyiri görə bilməmişdim. Bir neçə gündən sonra məni "Əxbar" qəzetində müdir müavini təyin etdilər. Bu radələrdə Üzeyirlə birinci dəfə olaraq üz-üzə gəldik və tanış oldum. Bu görüşdə, yadımdadır, Üzeyir əlimi sıxdı və gülümsəyərək dedi: "Daha qorxmursan ki?!""

■■■

**Şövkət Məmmədova:** "Mənim Üzeyirlə qəlbimdə dərin iz salmış ilk görüşüm 1912-ci ildə olmuşdur. Bakıda olduğumdan xəbər tutub, o, mənim taleyimdə yaxından iştirak etdi. Özünün ilk musiqi əsərlərinin *müvəffəqiyyətindən ruhlanan Üzeyir son əsərlərinin əlyazısını götürərək, məni öz yaradıcılıq planları ilə* tanış etdi. Bu görüş çox səmimi keçdi. Vəsait olmadığı üçün musiqi təhsilimi yarımçıq qoyduğumu eşidən kimi o, dərhal təklif etdi ki, tamaşa təşkil edib, toplanan pulla məni yenidən oxumağa göndərsinlər. Bu səmimi dəqiqələr uzun illər qəlbimdə kök saldı. Həssas qəlbə malik Üzeyir həyatımın ən çətin anlarında öz kömək əlini mənə uzatdı".

■■■

**Mirzağa Əliyev:** "1912-ci il aprelin 3-də Üzeyir Hacıbəyov mənimlə bərabər artistlərimizdən bir neçəsini evinə dəvət edib, İtaliyanın Milan konservatoriyasında təhsil alan azərbaycanlı qızı Şövkət xanım Məmmədovanın Bakıya gəldiyini bildirdi və Şövkət xanımın İtaliyaya qayıdıb təhsilini davam etdirməsi üçün ona kömək etməyimizi xahiş elədi. Üzeyir Hacıbəyovun təklifini hamılıqla qəbul edib, Şövkət xanım Məmmədovanın nəfinə "Ər və arvad" musiqili komediyasını oynamağı qət etdik. Aprelin 13-də axşam Tağıyev teatrında "Ər və arvad" musiqili komediyasının tamaşası qurtardıqdan sonra "konsert" şöbəsi başlandı. Şövkət xanım Məmmədova səhnəyə çıxıb bir neçə hava oxudu. Bu bir çoxlarının xoşuna gəlmədi. Xüsusilə "millət-millət" deyib bar-bar bağıran ağalar ayağa qalxıb teatrı tərk etməyə başladılar. Mən bu halı gördükdə tez səhnə arxasından Üzeyirin yanına gəlib xəbər verdim və nə etməli olduğumuzu ondan soruşdum. Üzeyir Hacıbəyov inadlı bir tərzdə: "Qoy gedən getsin, bizə qalanlar lazımdır" - dedi".

■■■

**Rza Təhmasib:** "Böyük bəstəkarla şəxsi tanışlığımın tarixi 1922-ci ildən başlayır. İlk görüşümüz Azərbaycan Dövlət Teatrına mən baş rəhbər təyin edildikdən bir az sonra olmuşdur. Bir gün Üzeyirin təsadüfən teatra gəlişini mənə xəbər verdilər. Hövlnak qalxıb, ikinci mərtəbədən endim, bəstəkara yaxınlaşıb salam verdim və onu otağa dəvət etdim. Bəstəkar tərəddüd içində idi, təkidlə təvəqqe etdiyimi görüb, sözümü sındırmadı, ağır addımlarla pillələri qalxıb, otağa daxil oldu, əyləşib fikrə getdi. Dərin sükutu mən pozdum: "Bu teatr sizinkidir", - dedim. O, üzümə baxmasa da, bilirdim ki, mənə diqqətlə qulaq asır. Bir anlıq pauzadan sonra: "Teatr Azərbaycan xalqınındır, biz isə onun adi, sıravi xidmətçiləriyik", - deyib başını qaldırdı".

■■■

**Bülbül:** "Məni bu böyük bəstəkarla Əbdürrəhimbəy Haqverdiyev tanış etmişdir. Xalq Maarif Komissarlığı nəzdindəki incəsənət idarəsinin rəisi olan Əbdürrəhimbəy Haqverdiyev "Əsli və Kərəm" operasında Kərəm rolunda çıxışımın ikinci günü öz iş otağında məni Üzeyir bəylə tanış edib dedi: "Bu bizim Bülbülümüzdür. Dünən Kərəm rolunda bülbül kimi cəh-cəh vurub camaata ləzzət verdi". O vaxt Üzeyir bəy musiqi şöbəsinin müdiri idi. Onun gözəl, cazibədar siması, iki tərəfə ayrılmış, azca qıvrım saçları, sadə və mə'nalı baxışları məni elə heyran etdi ki, gözümü bir an belə onun simasından ayıra bilmədim. Üzeyir bəy mənim bu heyranlığımı duyaraq zarafatla dedi: "Hə, istəyirsən səni tərifləyim?" Günlər keçdi. Üzeyir bəyin əsərlərinin qəhrəmanı oldum."

■■■

**Süleyman Ələsgərov:** "Müharibə dövründə ilk vokal əsərimi, döyüşçü şair Şirzad Əliyevin sözlərinə "Gözlə məni" mahnısını bəstələdim. Həmin mahnını böyük nəğməkarımız Bülbülə vermişdim. O, mahnını elə ilk tanışlıqdan bəyənmişdi. Ancaq bu haqda Üzeyir müəllimə heç nə deməmişdim. 1942-ci ilin oktyabr ayı idi. Üzeyir Hacıbəyovun dərsində ikən birdən qonşu otaqdan sevimli müğənnimizin həzin səsini eşitdik. O, "Gözlə məni" mahnısını oxuyurdu. Üzeyir müəllim bu mahnı ilə maraqlandı. Kimdisə Üzeyir müəllimə bildirdi ki, bu mahnını Süleyman yazıb. O, dərhal yerindən qalxdı, mehribanlıqla dedi: "Elə isə, gəlin gedək mahnıya bir də əməlli-başlı qulaq asaq". Biz müğənninin məşğul olduğu otağa keçdik. Üzeyir müəllimin təklifi ilə Bübül mahnını ikinci dəfə oxudu. (Royalda onu Vladimir Kozlov müşayiət edirdi). Mahnı sona yetəndə əvvəlcə Üzeyir bəy, sonra da tələbə yoldaşlarım məni təbrik etdilər. Görkəmli müğənnimizin isə sözü bu oldu: "Cavan oğlan, sənin mahnına bu gündən vətəndaşlıq hüququ verildi".

Bu mahnı böyük bəstəkarımızın çox xoşuna gəldiyi üçün 1943-cü ildə Ü. Hacıbəyovun *təklifi ilə məni* Bəstəkarlar İttifaqına qəbul etmişdilər".

■■■

**Ağabacı Rzayeva:** "Ü. Hacıbəyovun öz təhsil üsulu vardı: bizə, musiqi məktəbi və konservatoriyanın tələbələrinə həyatı dinləməyi, duymağı öyrədirdi. Hər gün bizi bir növ imtahana çəkirdi. Sovet məlumat bürosunun xəbərlərindən nə öyrənmişik, qəzetlərdə nə oxumuşuq? Biz də bir-birimizin sözünü kəsə-kəsə nəql edərdik.

"Hə, indi düşmən üzərinə hücuma keçən döyüşçülərin marşını yazın", - deyə Üzeyir bəy təklif edirdi. Biz də ixtisas fənni, harmoniya, polifoniya üzrə öyrəndiyimiz bütün biliklərə isnad edərək, həvəslə marş bəstələməyə başlardıq. Sonra bu əsərləri sinifdə ətraflı müzakirə edərdik. Müəllimimiz özünə xas olan təmkinlə bu müzakirəni elə aparardı ki, nöqsanlardan belə danışarkən heç kəs inciməzdi. O, bizim nəinki yaradıcılıq inkişafımıza nəzər yetirir, həmçinin həyatımızla, səhhətimizlə də maraqlanırdı".

■■■

**Şəfiqə Axundova:** "Üzeyir müəllim çox mehriban, səmimi, qayğıkeş, böyük ürəkli bir insan idi. Müharibə illəri idi. Bir gün dərsdə müəllimim rəngimi solğun görüb soruşdu. "Bəlkə acsan?", "Yox" - deyə utanıb üzümü yana çevirdim. O özü üçün gətirdiyi yağ-çörəyi çıxarıb mənə verdi və üstəlik çay da gətizdirdi. Müharibə illərində Üzeyir müəllim öz qonorarından mənimlə Ağabacı Rzayevaya maddi yardım kəsdirirdi. Biz uzun illər Üzeyir müəllimin sayəsində yaxşı təqaüdlə təmin olunmuşduq. Yadımdadır, 1944-cü ildə Zaqafqaziya musiqi ongünlüyünə getməli idik. Bizim geyimimiz də müəllimimizi düşündürürdü. Bir gün Ağabacı ilə mən onun kabinetinə getdik. Bizi görən kimi o, göstəriş verdi ki, bizi palto ilə təmin etsinlər. Bundan əlavə kostyum tikilmək üçün də atelyeyə göstəriş verildi və hətta tapşırıldı ki, kostyumun fasonunu Şövkət Məmmədova seçsin. Elə də oldu.

■■■

**Leyla Bədirbəyli:** "1938-ci il. Moskvada keçiriləcək Azərbaycan incəsənəti ongünlüyünə hazırlıq gedirdi. Ongünlüklə əlaqədar məşqlərin birində xorun rəhbəri və dirijoru Üzeyir Hacıbəyov xalq mahnısını oxuyan solisti, mahnıya başqa rəng verməyə çalışdığına görə, məşqi saxlayıb "A bala, nə eləyirsən? Mahnının atasını yandırırsan ki...", - deyə məzəmmət etdi. Solist çox tutuldu: "Mən mahnıya yeni forma, dirilik vermək istədim", - deyə cavab verdi. Üzeyir dedi: "Bu, xalq mahnısıdır. Özünün milli şirinliyi və gözəlliyi kifayət qədərdir. Musiqimizə inkişaf vacibdir. Lakin ona başqa don geydirəndə dözə bilmirəm".

■■■

**Mikayıl Abdullayev:** "İkinci portret üzərində işimizi təzə qurtarmışdıq. Üzeyirə bir balaca soyuq dəydi. O, iki-üç gün işə çıxmadı. Həmin günlər kabinet bağlı qalmışdı. Arada mən gəlib öz iş ləvazimatımı aparırdım. Elə oldu ki, gedəndə portreti iş masasının arxasındakı stulun üstündə, divar xalçasına söykəyib getdim. Vaxtdan istifadə edərək rənglərin qurumasını gözləyirdim. Ertəsi gün Üzeyir evdən konservatoriyanın dəftərxanasına zəng vurub nə isə soruşur. Bununla əlaqədar olaraq kabinetin açarını xidmətçi qadına verirlər ki, gedib nəyi isə gətirsin. Xidmətçi qadın qapını açıb içəri girir və cəld geri dönüb dəftərxanaya qayıdır, Üzeyirin özünün gəldiyi xəbərini verir. Təəccüblənirlər ki, elə şey olmaz. Əvvəla, Üzeyir xəstədir, ikincisi, telefon zəngindən heç beş dəqiqə keç*məyib, bu tezliklə də gəlib çatmaq olar? Kimsə tez gedib kabinetə ya*xınlaşır. Qapının açar yerindən baxıb görür ki, doğrudan da Üzeyir öz yerindədir. Bu dəfə tədris hissə müdiri özü gedir və kabineti açıb içəri girəndə, öz etirafına görə, əvvəl çaşır, sonra masa arxasındakının Üzeyirin özü yox, onun portreti olduğunu görüb gülməyə başlayır. Bu əhvalatı xeyli vaxt deyib gülərdilər. Üzeyir isə deyərdi ki, bax, ikinci portret özü müəllifsiz imtahandan çıxdı".

■■■

Yazımıza Mirzə İbrahimovun sözləri ilə bağladığımız kimi, elə onun sözlərilə də yekun vururuq: "Hələ cənazə Elmlər Akademiyasının böyük salonuna qoyulmamış Sabir bağçası Üzeyir Hacıbəyovla vidalaşmağa gəlmiş insanlarla dolu idi. Getdikcə də onların sayı artır, böyüyürdü. Noyabrın 24-də saat 3-də son vida üçün Akademiyanın qapıları açıldığı zaman insan dəstəsi arasıkəsilməz bir şərid kimi uzanıb, canlı axına çevrildi. Minlərlə müxtəlif millətlərdən olan fəhlələr, ziyalılar, qulluqçular, kolxozçular böyük bir kədərlə Üzeyirin tabutu başından dolanıb keçirdilər. Tabutun yanından keçən qoca rus qadınlarının və Azərbaycan qarısının gözündən qeyri-ixtiyari yaş axır. Kim bilir, bəlkə də bunlar ömründə bir dəfə Üzeyiri görməmiş, şəxsən onu tanımayan adamlardır! Lakin Üzeyirin əzəmətli və vüqarlı surəti çoxdan onların ürəyinə daxil olmuşdur. Onların qəlbində canlı Üzeyir, "Leyli və Məcnun"u, "Arşın mal alan"ı, "Koroğlu"nu yaratmış Üzeyir yaşamaqdadır.

Ertəsi gün. Saat ondan üçə qədər on minlərlə adam axıb gəlir, tabutun ətrafına dolanaraq gedirdilər. Dəfn mərasimi görünməmiş bir nümayişə çevrildi. Akademiyanın qabağından tutmuş fəxri simalar məqbərəsinə qədər bütün yaxın küçələr, evlərin balkonları, damların üstü adamlarla dolu idi. Bakı öz sevimli övladı ilə görünməmiş məhəbbət və hörmətlə vidalaşırdı".

Təqdim etdi: **Rüfət Rzayev**